Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Iradə Hacıyevanın 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu III seçki dairəsi üzrə Zabrat bələdiyyə üzvlüyünə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş Əhmədov Nizami Yusif oğlunun Mərkəsi Seçki Komissiyasına daxil olmuş 27 noyabr 2014-cü il tarixli 15 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 28 noyabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu III seçki dairəsi üzrə Zabrat bələdiyyəsi üzvlüyünə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş Əhmədov Nizami Yusif oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 noyabr 2014-cü il tarixli 15 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu III seçki dairəsindən Zabrat bələdiyyəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş namizəd Əhmədov Nizami Yusif oğlu 2014-cü il noyabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, adıçəkilən dairə seçki komissiyası tərəfindən namizəd kimi qeydiyyatından qanunsuz imtina edilməsini bildirmiş və bununla əlaqədar qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Vətəndaş N.Y.Əhmədov şikayətini onunla əsaslandırmışdır ki, 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 28 saylı Sabunçu III seçki dairəsindən Zabrat bələdiyyəsi üzrə onun namizədliyini Ümid Partiyası

irəli sürmüş, həmin bələdiyyə ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqəsini və ona əlavə edilmiş digər zəruri sənədləri DSK-ya təqdim etmiş, ancaq dairə seçki komissiyası əsassız olaraq onun namizəd kimi qeydə alınmasından imtina etmişdir.

Dairə seçki komissiyası N.Y.Əhmədovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 22 noyabr 2014-cü il tarixli 17/56 saylı qərarını onunla əsaslandırmışdır ki, imza vərəqəsi və ona əlavə edilmiş sənədlərin yoxlanılması üçün işçi qrupuna cəlb edilmiş mütəxəssis tərəfindən verilmiş rəyə əsasən təqdim edilmiş imza vərəqəsində olan 100 seçici imzasından 29-u etibarsız, 71-i isə etibarlı hesab edilmişdir. Ona görə də etibarlı hesab edilən seçici imzalarının sayı namizədin qeydə alınması üçün kifayət etməmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 27 noyabr 2014-cü il tarixli rəylər və protokoldan görünür ki, bələdiyyə üzvlüyünə namizəd Əhmədov Nizami Yusif oğlunun namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqəsində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Namizəd tərəfindən toplanılmış 100 seçici imzasından 93-ü etibarlı hesab edilmişdir.

Seçki Məcəlləsinin 215.1.5-ci maddəsinə əsasən əhalisi 19.999-dan çox olan ərazidə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş 75 seçici imzası toplamalıdır. Müvafiq icra hakimiyyəti orqanının təqdim etdiyi arayışla təsdiq olunur ki, Zabrat bələdiyyəsinin əhatə etdiyi ərazidə əhalinin sayı Seçki Məcəlləsinin yuxarıda qeyd edilən maddəsi ilə müəyyən edilmiş say həddindədir. Namizədin təqdim etdiyi imza vərəqəsində etibarlı hesab edilən imzaların sayı qeydə alınması üçün kifayət etdiyindən onun namizəd kimi qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Seçki Məcəlləsinin 60.2-ci maddəsində namizədliyin qeydə alınmasından imtina edilməsinin əsasları göstərilmişdir. Dairə seçki komissiyası şikayətçinin namizəd kimi qeydə alınmasından imtinaya dair qərar qəbul edərkən həmin maddənin tələblərini nəzərə almamışdır.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 28 saylı Sabunçu III seçki dairəsi dairə seçki komissiyasının N.Y.Əhmədovun Zabrat bələdiyyəsi üzvlüyünə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 22 noyabr 2014-cü il tarixli, 17/56 saylı qərarı ləğv edilməli, o, həmin seçki dairəsindən bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və “Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki

komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 28 saylı Sabunçu III seçki dairəsindən Zabrat bələdiyyəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş Əhmədov Nizami Yusif oğlunun 27 noyabr 2014-cü il tarixli 15 saylı müraciəti təmin edilsin, onun namizəd kimi qeydə alınmasından imtinaya dair müvafiq dairə seçki komissiyasının 22 noyabr 2014-cü il tarixli 17/56 saylı qərarı ləğv edilsin.
2. 28 saylı Sabunçu III seçki dairəsindən Zabrat bələdiyyəsi üzrə namizədliyi Ümid Partiyası tərəfindən irəli sürülmüş Əhmədov Nizami Yusif oğlu bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınsın.
3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva